# XƏLİL İSMAYILOV-70

**Kərim TAHİROV**

*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi,tarix üzrə fəlsəfə doktoru, professor*

Kitabxana fəaliyyətinin müxtəlif sahələrində, xüsusən də kitabxanaların metodik təminatı və kitabxana resursları, informasiya axtarış sistemlərinin, kitabxana menecmenti tədqiqində böyük uğur əldə etmiş, geniş və fundamental tədqiqat işləri aparmış Xəlil İsmayılovun 70 yaşı tamam olur. O, kitabxana sferasında, bütövlükdə ictimaiyyətdə böyük hörmət və nüfuza malik alimlərimizdəndir.

Xəlil müəllimi tanıdığım müddət ərzində vəzifəsindən asılı olmayaraq həmişə işinə məsuliyyətlə yanaşmış, işgüzarlığı, obyektivliyi, humanistliyi və prinsipiallığı ilə həmişə seçilmiş, təhsilin və təlimin təşkilində aktiv iştirak etmiş, yenilikçi ideyaları və tövsiyələri ilə fərqlənmişdir.

Tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi, professor X. İsmayılovun geniş elmi-tədqiqatlarının nəticələri "Kitabxana işinin idarə edilməsinin təşkilati-metodik məsələləri" (1995), "Kitabxana menecmentinin əsasları" (2005, 2007), "Kitabxana-informasiya texnologiyaları" (2009), "Kitabxana işinin təşkili və idarə olunması" (2010) adlı dərs vəsaitlərində və "Azərbaycan Respublikasında Kitabxanaların metodik təminat sisteminin inkişaf tarixi: (1918-2000)" (2000) adlı sanballı monoqrafiyada, 150-dən çox elmi məqalədə, konfrans materiallarında öz əksini tapmışdır və bu gün kitabxanaşünaslıq üzrə onlarla tədqiqat işində, dissertasiyalarda bu əsərlərdən bəhrələnmiş, onlara isnad edilmişdir.

Professor eyni zamanda 1997-ci ildən nəşr olunan "Kitabxanaşünaslıq və biblioqrafiya" adlı ixtisas məcmuəsinin - elmi-nəzəri və təcrübi jurnalın təsisçisi və baş redaktoru kimi mühüm bir fəaliyyətlə də məşğuldur ki, bu jurnalda kitabxana işinin aktual problemlərinə, ölkə və dünya kitabxanalarında baş verən yeniliklərə, qabaqcıl iş təcrübəsinə hər zaman yer verilir.

Məhsuldar elmi-tədqiqat, elmi pedaqoji fəaliyyətlə məşğul olan X.İsmayılov həm də gözəl təşkilatçılıq və yüksək idarəetmə qabiliyyətinə malik şəxsiyyətdir. Belə ki, alim 1999-cu ildə Azərbaycanda təşkil olunmuş Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının təsisçilərindən biri və prezidentidir. Təkcə ölkəmizdə deyil, respublikamızın hüdudlarından kənarda ABŞ (Boston), Fransa (Nitsa, Leon, Kan), Belçika (Brüssel, Namur), Norveç (Oslo) və Koreya kimi dünya ölkələrində (Seul) təşkil olunmuş Beynəlxalq kitabxana forumlarında, İFLA-nın iclaslarında, beynəlxalq konfranslarda Azərbaycan kitabxana



cəmiyyətini təmsil etmiş və kitabxana işinin aktual məsələlərinə dair məruzələrlə çıxış etmişdir. O həmçinin 10 illik bir dövr ərzində Kitabxanaçılıq-informasiya fakültəsində dekan kimi fəaliyyət göstərmiş, bu müddətdə hazırda respublikamızın kitabxanalarında müvəffəqiyyətlə çalışan yüksək ixtisaslı kadrların, elmi-tədqiqatçıların yetişdirilməsində yaxından iştirak etmiş, beləliklə də kitabxanaşünaslıq elminin inkişafına öz töhfəsini vermişdir.

Təsadüfi deyil ki, görkəmli alimin elmin, təhsilin inkişafı və tərəqqisində, kitabxanaşünaslıq elminin inkişafında xidmətləri dövlət tərəfindən hər zaman yüksək qiymətləndirilmiş, 2009-cu ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, Respublika Təhsil Nazirliyi tərəfindən iki dəfə "Qabaqcıl təhsil işçisi" adına, BDU-nun rektoru tərəfindən Fəxri fərmanlara layiq görülmüş, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir.

Hörmətli Yubilyar! Sizi 70 yaşın zirvəsində şəxsən öz adımdan və Azərbaycan Milli Kitabxanasının kollektivi adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, elmi fəaliyyətinizdə və yaradıcılığınızda uğurlar, müvəffəqiyyətlər arzulayıram!